*Çinarə Qasımova*[*]

# Vəfat Etmiş Şəxsin Fərdi Məumatları Qorunurmu?

**Annotasiya**

*Texnologiyalar dövründə yaşadığımız üçün rəqəmsal cihazlar, sosial media, bulud bağlantısı həyatımızın ayrılmaz hissəsinə çevrilib. İnternet və sosial şəbəkələrdən istifadə genişləndikcə internet istifadəçiləri tərəfindən onlayn aləmdə getdikcə daha çox məlumat paylaşılır. Bu məqalədə şəxs vəfat etdikdən sonra şəxsin yaşadığı dövr ərzində müxtəlif vasitələrdə toplanılmış və saxlanılmış fərdi məlumatlarından istifadə edilməsinin mümkünlüyü və belə məlumatlardan istifadə edilməsinin nəticələri Azərbaycan Respublikası qanunvericiliyi çərçivəsində təhlil ediləcəkdir. Həmçinin "Fərdi Məlumatların Qorunması üzrə Ümumi Qaydalar"-da (The General Data Protection Regulation - GDPR) vəfat etmiş şəxsin fərdi məlumatlarının işlənilməsi ilə bağlı tənzimləmənin olub-olmaması da analiz ediləcək və fərdi məlumatların qorunması üzrə xarici praktikaya nəzər yetiriləcəkdir. Beləliklə, vəfat etmiş şəxsə münasibətdə müxtəlif ölkələrin fərdi məlumatların təhlükəsizliyi üzrə qanunvericilikləri təhlil edilməklə Azərbaycan Respublikasının fərdi məlumatların qorunması üzrə qanunvericiliyindəki boşluqlar və çatışmazlıqlar aşkar edilərək yerli qanunvericilikdə dəyişikliklər, təkmilləşdirmələr üçün bir sıra təkliflər irəli sürüləcəkdir.*

**Abstract**

*Because we live in an age of technology, digital devices, social media, cloud connectivity have become an integral part of our lives. The more the Internet and social networks expand, the more information is being shared online by Internet users. This article will analyze the possibility of using a dead person's personal data collected and stored during his/her lifetime and the consequences of using such information after the death within the framework of the legislation of the Republic of Azerbaijan. In addition, the General Data Protection Regulation (GDPR) will be examined whether there is a regulation on the processing of personal data of the deceased, and foreign practice for the protection of personal data will be considered. Thus, by interpreting the personal data security legislation of different countries concerning to the deceased, gaps and shortcomings in the legislation of the Republic of Azerbaijan on personal data protection will be identified and a number of proposals will be made for changes and improvements in local legislation.*

## Mündəricat

Giriş ....................................................................................................32

I. Azərbaycan Respublikası qanunvericiliyi çərçivəsində vəfat etmiş şəxsin fərdi məlumatlarının işlənilməsi ....................................................................33

II. Fərdi məlumatlar haqqında qanunvericiliyin pozulmasının nəticəsi ................35

[*] Bakı Dövlət Universiteti, LL.B, 2018.

III. "Fərdi Məlumatların Qorunması üzrə Ümumi Qaydalar"-da (The General Data Protection Regulation) və dünya praktikasında vəfat etmiş şəxsin fərdi məlumatlarının qorunması ilə bağlı qaydalar ......37

IV. Şəxsin vəfatından sonra onun fərdi məlumatlarının qorunması yolları və vasitələri......45

Nəticə ......46

## Giriş

Hazırda istər şəxsi, istərsə də iş həyatımızı internetsiz, internetə çıxışı olmayan cihazlarsız təsəvvür etmək mümkün deyil. Şübhəsiz ki, bütün bunlar həyatımızı müəyyən mənada asanlaşdırır, ailəmizlə, yaxınlarımızla davamlı əlaqədə olmaq üçün imkan yaradır, iş həyatımızda isə məlumat mübadiləsini elektron poçtlar vasitəsilə həyata keçirmək onu daha sistemli və sürətli hala gətirir. Bütün bunlar rəqəmsal aləmdə məlumat mübadiləsi ilə mümkün olur, belə ki, biz müxtəlif vasitələrə müəyyən fərdi məlumatlarımızı daxil edirik, başqasına ötürürük və bu məlumatlar həmin vasitələrdə toplanılır və saxlanılır. Sağ ikən müxtəlif vasitələrdə, məsələn telefon, noutbuk və ya kompüter, elektron poçt ünvanlarında və ya bu kimi digər vasitələrdə toplanmış şəkillərin, videoların, yazışmaların və müxtəlif digər fərdi məlumatlarımızın təhlükəsizliyini özümüz müəyyən mənada təmin edə bilirik. Vəfat etdikdən sonra isə toplanmış məlumatların istifadə olunması, qorunması ilə bağlı problemlər yaranır. Texnologiyanın sürətli inkişafını və internet üzərindən məlumatların mübadiləsinin intensivləşdiyini nəzərə alsaq, fərdi məlumatlarımızın təhlükəsizliyini təmin etməyimiz hər gün daha da çətinləşir. Hüquq sistemi də, fərdi məlumatların qorunması üzrə olan qanunvericilik bazası da bir çox məqamda belə sürətli dəyişikliklərlə ayaqlaşa bilmir. Buna görə də qanunvericiliyi davamlı olaraq dəyişdirmək, təkmilləşdirmək zərurəti yaranır.

Məqalənin əhatə dairəsinə uyğun olaraq şəxsin fərdi məlumatlarının qorunmasının əsas hüquqi bazasını "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanunu təşkil edir. İlk olaraq qanundakı "fərdi məlumat"-lara verilmiş anlayışı nəzərədən keçirək. *Fərdi məlumatlar* dedikdə "şəxsin kimliyini birbaşa və ya dolayısı ilə müəyyənləşdirməyə imkan verən istənilən məlumat" nəzərdə tutulur.[1] Belə "məlumatların informasiya sistemi və ya ehtiyatı üzərində tam sahiblik, istifadə, sərəncamvermə hüququnu həyata keçirən, fərdi məlumatların işlənilməsi məqsədini müəyyən edən dövlət və ya yerli özünüidarə orqanı, hüquqi və ya fiziki şəxs" *fərdi məlumatların mülkiyyətçisi* hesab edilir.[2] Fərdi məlumatların mülkiyyətçisi öz fərdi məlumatlarından özünün müəyyən etdiyi qaydada və həcmdə istifadə

[1] "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanunu, mad. 2.1.1 (2010).
[2] Yenə orada, mad. 2.1.9.

edilməsi üçün dövlət və ya yerli özünüidarə orqanı, hüquqi və ya fiziki şəxsə istifadə hüququ verə bilər.[3]

Qeyd etmək lazımdır ki, "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununda şəxsin vəfatından sonra onun rəqəmsal aləmdə, müxtəlif vasitələrdə toplanmış fərdi məlumatlarının qorunması üzrə müəyyən bir **hüquqi tənzimləmə yoxdur**. Bu isə öz növbəsində şəxsin vəfatından sonra müxtəlif vasitələrdə şəxs barəsində olan toplanmış məlumatların onun yaxınları, vərəsələri tərəfindən əldə edilməsi və istifadə edilməsi ilə bağlı mübahisəli məqamların yaranmasına səbəb olur.

Bu məqalədə şəxsin fərdi məlumatlarının qorunması və işlənilməsi ilə bağlı Azərbaycan Respublikasının qanunvericiliyinin və müvafiq qanunvericiliyin vəfat etmiş şəxsə münasibətdə tətbiq edilməsinin mümkünlüyünün, həmçinin şəxsin fərdi məlumatlarının qorunması və işlənilməsi ilə bağlı tənzimləmələri həyata keçirən sənədlərdən biri və ən vacibi qismində çıxış edən Avropa İttifaqının (Aİ) "Fərdi Məlumatlarının Qorunması üzrə Ümumi Qaydalar"-ının *(The General Data Protection Regulation - GDPR)* və müxtəlif dövlətlərin qanunvericiliyi çərçivəsində tənzimləmələrin araşdırılması və bu sahədə boşluqların aşkarlanması nəzərdə tutulmuşdur.

## I. Azərbaycan Respublikası qanunvericiliyi çərçivəsində vəfat etmiş şəxsin fərdi məlumatlarının işlənilməsi

*Fərdi məlumatların işlənilməsi* dedikdə "fərdi məlumatlar üzərində aparılan əməliyyatlar (fərdi məlumatların yazılması, sistemləşdirilməsi, təzələnməsi, dəyişdirilməsi, çıxarılması, adsızlaşdırılması, saxlanması, ötürülməsi, məhv edilməsi)" nəzərdə tutulur.[4] Fərdi məlumatlar haqqında yerli qanunvericiliyə görə, "vəfat etmiş şəxslər barəsində fərdi məlumatların işlənilməsinə subyektin sağlığında qadağan qoyulmamışdırsa, həmin məlumatlar qanunvericiliklə müəyyən olunmuş hallarda işlənilə bilər".[5] Buradan aydın olur ki, vəfat etmiş şəxsin fərdi məlumatlarından istifadə edilməməsi üçün şəxs tərəfindən sağlığında belə məlumatların istifadə edilməsinə qadağa qoyulmalıdır. Bundan başqa, burada qeyd olunan vəfat etmiş şəxsin fərdi məlumatlarının işlənilə bilməsi halları qanunvericilikdə konkret olaraq müəyyən olunmamışdır, bu isə məsələnin hüquqi aspektdən qiymətləndirilməsini çətinləşdirir. Həmçinin subyekt vəfat etdikdə və ya Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada ölmüş elan edildikdə "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası

[3] Yenə orada, mad. 2.1.11.
[4] Yenə orada, mad. 2.1.8.
[5] Yenə orada, mad. 8.4.

qanunvericiliyi ilə subyektin özü barəsində *fərdi məlumatların toplanılmasına və işlənilməsinə razılıq* onun *vərəsələri* tərəfindən verilir.[6]

Buradan belə nəticəyə gələ bilərik ki, vəfat etmiş şəxsin fərdi məlumatlarından istifadə edilməsi ilə bağlı razılığı verən vərəsə həmin fərdi məlumatlardan istifadə edər bilər. Çünki artıq qeyd edildiyi kimi fərdi məlumatlardan istifadə ilə bağlı razılıq şəxsin özü tərəfindən verilir. Vəfat etmiş şəxsə münasibətdə belə razılığı onun vərəsəsi verir və vərəsə dolayı yolla vəfat etmiş şəxsin fərdi məlumatlarının "mülkiyyətçi"-sinə çevrilir. Həmçinin Azərbaycan Respublikasının mülki qanunvericiliyinə görə, "ölmüş şəxsin (miras qoyanın) əmlakı başqa şəxslərə (vərəsələrə) qanun üzrə və ya vəsiyyət üzrə və ya hər iki əsasla keçə bilər".[7] Belə ki, şəxsin fərdi məlumatlarının toplandığı vasitələr, məsələn telefonu onun əmlakı sayılır və bu kimi əmlakın şəxsin vərəsəsinə keçdiyi halda həmin əmlakın içərisindəki məlumatların təhlükəsizliyinin necə tənzimlənəcəyi qanunvericilikdə təsbit olunmamışdır.

Həmçinin qeyd edək ki, fərdi məlumatların işlənilməsi üçün razılıq alındığı haqqında sübut fərdi məlumatın *mülkiyyətçisi* və ya *operatoru* tərəfindən təqdim edilməlidir.[8] *Fərdi məlumatların operatoru* isə "fərdi məlumatların toplanılmasını, işlənilməsini və mühafizəsini həyata keçirən fərdi məlumatların mülkiyyətçisi və ya onun bu funksiyaları müəyyən həcmdə və şərtlərlə həvalə etdiyi dövlət və ya yerli özünüidarə orqanı, hüquqi və ya fiziki şəxsdir".[9]

Beləliklə, qeyd olunanları belə ümumiləşdirmək mümkündür ki, şəxs sağ ikən məlumatlarının istifadə edilməsinə qadağa qoya bilər və ya bu cür məlumatların işlənilməsini özünün müəyyən etdiyi şəxsə vəsiyyət edə bilər. Belə qadağa və vəsiyyət olmadığı halda şəxsin vərəsələri tərəfindən şəxsin fərdi məlumatlarından istifadə edilməsi və başqasının da istifadə etməsinə razılıq verilməsi mümkündür. Bundan əlavə, "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası qanununa görə, fərdi məlumatların əldə olunmasına qoyulan məhdudiyyət "şəxsin vəfatından sonra *30 il müddətinədək*" qüvvədədir.[10] Şəxsin vəfat etməsindən 30 il sonra isə belə məlumatların işlənilməsi üzərində məhdudiyyət, ümumiyyətlə, aradan qalxır. Başqa sözlə desək, şəxs vəfat etdikdən sonra onun məlumatları 30 il müddətinədək müəyyən mənada qorunur.

[6] Yenə orada, mad. 8.3.
[7] Azərbaycan Respublikasının Mülki Məcəlləsi, mad. 1133.1 (1999).
[8] Yuxarıda istinad 1, mad. 8.4.
[9] Yenə orada, 2.1.10.
[10] "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu, mad. 40.2 (2005).

# II. Fərdi məlumatlar haqqında qanunvericiliyin pozulmasının nəticəsi

Azərbaycan Respublikasının qanunvericiliyində vəfat etmiş şəxsin müxtəlif rəqəmsal vasitələrdə toplanmış və saxlanılmış məlumatlarının, rəqəmsal "əmlak"-ının əldə edilməsi, belə məlumatların işlənilməsi ilə bağlı konkret tənzimləmə olmadığını nəzərə alsaq, qeyd edə bilərik ki, şəxs vəfat etdikdən sonra onun vərəsələri tərəfindən şəxsin rəqəmsal cihazlarına daxil olunması və şəxsin fərdi məlumatının əldə edilməsi mümkündür. Bununla belə, vurğulamaq lazımdır ki, yerli qanunvericilik şəxsin fərdi məlumatlarının qorunması üzrə müəyyən təminat verir. Belə ki, "bütün fiziki və hüquqi şəxslər özlərinin qanunla qorunan hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədi ilə qanunla müəyyən edilmiş qaydada məhkəmə müdafiəsindən istifadə etmək hüququna malikdirlər".[11] Odur ki, şəxs vəfat etdikdən sonra açıqlanan, açıqlana biləcək məlumatlarla bağlı marağı olan şəxs öz marağını qorumaq və təmin etmək hüququna malikdir və bu hüququnun təmin edilməsi üçün müvafiq qaydada məhkəməyə müraciət edə bilər. Həmçinin vəfat etmiş şəxsin vərəsələri vəfat etmiş şəxsin fərdi məlumatlarından başqasının istifadə etdiyi halda, vəfat etmiş şəxsin hüquqlarının təminatçısı qismində çıxış edərək müvafiq qaydada məhkəməyə müraciət edə bilərlər.

Vəfat etmiş şəxsin ailə üzvlərinin həmin şəxs barəsində qərar verməklə bağlı iqtisadi maraqları ilə yanaşı, şəxsin adını və nüfuzunu vicdanlı şəkildə qorumağı ehtiva edən psixoloji və emosional maraqları da var.[12] Məsələn Marlen Ditrix (Marlene Dietrich)[13] işində məhkəmə tərəfindən vəfat etmiş şəxsin həm qeyri-kommersiya (ləyaqət, məxfilik), həm də iqtisadi maraqlarının (ad, səs və ya rəsmin maddi mənfəət üçün istifadə edilməsi) qorunmasının vacibliyi müəyyən edilmişdir.[14] Belə ki, 6 may 1992-ci ildə vəfat edən aktrisa Marlen Ditrixin yeganə övladı və varisi[15] reklam məqsədilə aktrisanın adından, rəsmindən, imzasından istifadə edilməsini mübahisələndirir, belə istifadənin anasının şəxsi hüquqlarının pozulması kimi qiymətləndirir və zərərin əvəzinin ödənilməsini tələb edir.[16] Cavabdeh isə iddiaya etiraz edərək, aktrisanın qeyd edilən məlumatlarından istifadənin musiqi üçün reklam tədbirləri ilə əlaqəsini vurğulayaraq bunun "bədii azadlıq" hesab edildiyini, Marlen Ditrixin şəxsi hüquqlarının pozulmadığını əsas gətirmişdir.[17] Bundan əlavə, cavabdeh şəxsin vəfatından sonra onun şəxsi

---

[11] Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi, mad. 4.1 (1999).
[12] Andrew Gilden, *The Social Afterlife*, 33 Harvard Journal of Law & Technology 329, 347 (2020).
[13] Marlene Dietrich Case BGH 1 ZR 49/97 (1999).
[14] Edina Harbinja, *Does the EU Data Protection Regime Protect Post-Mortem Privacy and What Could Be The Potential Alternatives?*, 10 A Journal of Law, Technology & Society (2013).
[15] BGH, Urteil vom 1. 12. 1999 – I ZR 49/97 – Marlene Dietrich; Kammergericht; LG Berlin, para. 8 (1999).
[16] Yenə orada, para. 11.
[17] Yuxarıda istinad 13, hissə 2, bənd "c".

hüquqlarının pozulmasının maddi maraqlar üzrə zərərin ödənilməsinin tələb edilməsinə dair hər hansı iddia üçün əsas olmamasını, bu hüquqların ancaq qeyri-maddi maraqları qoruduğunu qeyd etmişdir.[18]

Məhkəmə isə Marlen Ditrixin rəsmindən birbaşa ictimaiyyətin diqqətini musiqiyə cəlb etmək üçün bir vasitə kimi istifadə edilmədiyinə,[19] onunla birlikdə təqdim olunan məhsulların satışını təşviq etmək üçün[20] vərəsəsinin razılığı olmadan reklam məqsədləri üçün istifadə edildiyinə[21] əsaslanmışdır. Qərarda həmçinin deyilir ki, "şəxsi hüququn maddi dəyəri olan komponentləri şəxsi hüquq sahibinin ölümündən sonra qeyri-maddi maraqlar qorunub saxlanıldığı müddətdə mövcud olmağa davam edir. Müvafiq səlahiyyətlər şəxsi hüquq sahibinin vərəsəsinə keçir və vəfat etmiş şəxsin açıq və ya ehtimal olunan iradəsinə uyğun olaraq onun tərəfindən həyata keçirilə bilər".[22]

Beləliklə, məhkəmə vəfat etmiş şəxsin şəxsi hüquqlarının pozuntusunu tanımış və zərərin əvəzinin ödənilməsi üzrə qərar qəbul etmişdir.[23] Zərərin məbləği isə iddiaçı tərəfindən qeyd olunan formalarda: i) faktiki olaraq və ya ii) tərəflər arasında lisenziya müqaviləsi bağlanmış olsaydı, belə istifadənin nəticəsində cavabdehin qazanmış olacağı və ya bundan sonra qazanacağı məbləğə uyğun və ya iii) cavabdehin istifadədən əldə etdiyi qazanc məbləğində tələb edə bilər.[24] Qərarda həmçinin zərərin hesablanmasının ən əlverişli yolunu seçmək və ziyanı hesablaya bilmək üçün iddiaçının tələb olunan məlumatları cavabdehdən almaq hüququna malik olduğu da müəyyən edilmişdir.[25]

Bundan əlavə, Azərbaycan Respublikası qanunvericiliyində "*fərdi məlumatların mülkiyyətçisi* və ya *operatoru* tərəfindən fərdi məlumatların mühafizəsinin təmin olunmamasına, "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tələb olunduğu hallarda və müddətlərdə fərdi məlumatların məhv edilməməsinə, yaxud fərdi məlumatların toplanılmasının, işlənilməsinin və ya verilməsinin dayandırılmamasına görə *üç yüz manatdan beş yüz manatadək* məbləğdə cərimə" edildiyi təsbit olunmuşdur.[26] Bu sanksiyanın tətbiq olunması mexanizminə gəldikdə isə, "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası qanununa görə, "fərdi məlumatların toplanılması, işlənilməsi və mühafizəsi sahəsində qanunvericiliyin tələblərini pozmuş şəxslərin müəyyən olunmuş qaydada məsuliyyətə cəlb edilməsi üçün *müvafiq icra*

[18] Yenə orada.
[19] Yenə orada, bənd "cc", abzas 3.
[20] Yenə orada, bənd "cc", abzas 2.
[21] Yuxarıda istinad 17.
[22] Yuxarıda istinad 13, bənd "b".
[23] Yenə orada, hissə 3, bənd "d".
[24] Yenə orada.
[25] Yenə orada.
[26] Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi, mad. 375.0.2 (2015).

*hakimiyyəti orqanı* tərəfindən zəruri hesab olunan tədbirlər görülə bilər".[27] Burada müvafiq icra hakimiyyəti orqanı dedikdə isə "öz səlahiyyətləri çərçivəsində Azərbaycan Respublikası-nın Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti" nəzərdə tutulur.[28]

Beləliklə, məsələnin mahiyyətindən asılı olaraq vəfat etmiş şəxsin vərəsələri və ya bunda qanuni marağı olan şəxslər şəxsin fərdi məlumatlarının işlənilməsi ilə bağlı həm vəfat etmiş şəxsin, həm də özlərinin qanuni maraqlarını qoruya bilərlər. Lakin mövcud qanunvericiliyə əsaslansaq, öz fərdi məlumatlarının təhlükəsizliyinin qayğısına qalan şəxsin hələ sağ ikən vəfatından sonra belə məlumatlarının taleyinin necə olmasını müəyyənləşdirməsi daha məqsədəuyğun olacaqdır.

## III. "Fərdi Məlumatların Qorunması üzrə Ümumi Qaydalar"-da (The General Data Protection Regulation) və dünya praktikasında vəfat etmiş şəxsin fərdi məlumatlarının qorunması ilə bağlı qaydalar

Bu hissədə Aİ-nin "Fərdi Məlumatlarının Qorunması üzrə Ümumi Qaydalar"-ında (The General Data Protection Regulation - GDPR), eyni zamanda Aİ-ə bəzi üzv və qeyri-üzv dövlətlərin yerli qanunvericiliyində şəxsin fərdi məlumatlarının qorunması və bu cür qaydaların şəxsin vəfatından sonra da ona tətbiq olunub-olunmaması, ümumilikdə isə vəfat etmiş şəxsin fərdi məlumatlarının qorunması ilə bağlı tətbiq etdiyi qaydalar, tənzimləmələrdən bəhs ediləcək.

**GDPR (Avropa İttifaqı):** Texnologiyanın gündəlik həyatımıza təsiri Aİ-nin məlumatların qorunması qaydalarına yenidən baxılmasını zəruri etdi.[29] Belə ki, 2011-ci ildə "Google" istifadəçisi şirkətin onun elektron poçt ünvanındakı məlumatlarının nəzərdən keçirməsi iddiası ilə məhkəməyə müraciət etmişdir.[30] Bundan iki ay sonra Avropanın məlumatların qorunması orqanı tərəfindən Aİ-nin "fərdi məlumatların qorunmasına hərtərəfli yanaşma"-ya ehtiyac duyduğunu elan edildi və 1995-ci il direktivinin yenilənməsi işinə başlandı.[31] Beləliklə, 2016-cı ildə Aİ son illərdəki ən böyük uğurlarından biri

[27] Yuxarıda istinad 1, mad. 17.2.4.
[28] "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununun icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı, mad. 3.2 (2010).
[29] The History of the General Data Protection Regulation, burada bax: https://edps.europa.eu/data-protection/data-protection/legislation/history-general-data-protection-regulation_en (son baxış 8 Dekabr, 2020).
[30] What is GDPR, the EU's New Data Protection Law?, burada bax: https://gdpr.eu/what-is-gdpr/ (son baxış 17 Dekabr, 2020).
[31] Yenə orada.

olan və internetin başlanğıc dövründə qəbul edilmiş 1995-ci il tarixli "Məlumat Qoruma Direktivini"-ni (the 1995 Data Protection Directive) əvəz edən "Fərdi Məlumatların Qorunması üzrə Ümumi Qaydalar"-ını (GDPR) qəbul etdi.[32] GDPR dünyada ən sərt məxfilik və təhlükəsizlik qanunudur.[33] Aİ tərəfindən hazırlanmasına və qəbul olunmasına baxmayaraq, Aİ vətəndaşları ilə əlaqəli məlumatları hədəf aldıqları və ya topladıqları təqdirdə, GDPR istənilən yerdə təşkilatlar üzərinə öhdəliklər qoya bilər.[34] Qanun 25 may 2018-ci il tarixində qüvvəyə minmişdir.[35]

GDPR fərdi məlumatların qorunması ilə bağlı mövcud hüquqları gücləndirir, yeni hüquqlar təmin edir və vətəndaşlara şəxsi məlumatlarına daha çox nəzarət etmək imkanı verir. GDPR-ın üstünlüklərinə aşağıdakıları aid edə bilərik:[36]

- məlumatlara daha asan giriş[37] - fərdi məlumatların necə işlənildiyi barədə daha çox məlumat vermək və məlumatların aydın və anlaşılan bir şəkildə mövcud olmasını təmin etmək;
- məlumatların daşınması[38] - xidmət təminatçıları arasında fərdi məlumatların ötürülməsini asanlaşdırmaq;
- daha dəqiq silmək hüququ ("unudulmaq hüququ" (right to be forgotten))[39] - şəxs artıq məlumatlarının işlənməsini istəmədikdə və onu saxlamaq üçün qanuni bir səbəb olmadıqda məlumatları silmək;
- fərdi məlumatlara üçüncü şəxslərin qeyri-qanuni yolla daxil olmasını bilmək hüququ[40] - şirkətlər və təşkilatlar tərəfindən şəxslərə məlumatların ciddi pozuntusu baş verdiyi halda, bu barədə şəxslərə məlumat vermək;
- həmçinin müvafiq məlumatların qorunmasına nəzarət edən orqanı xəbərdar etmək.

Bundan başqa, GDPR-ın pozuntusuna görə yüksək məbləğdə cərimələr müəyyən edilmişdir.[41] Cərimələrin məbləği 20 milyon avroya və ya əvvəlki maliyyə ili üzrə illik dünya dövriyyəsinin 4%-lik həcmi qədər müəyyən edilmişdir.[42] Müəyyən edilmiş cərimələrin məbləğinin çox olması da öz növbəsində Qanunun tələblərinin qorunmasının təsir gücünün artmasında rola malikdir.

[32] Yuxarıda istinad 29.
[33] Yuxarıda istinad 30.
[34] Yenə orada.
[35] Yenə orada.
[36] Protection of personal data (2018).
[37] The General Data Protection Regulation, bölmə 2, mad. 13 (2018).
[38] Yenə orada, mad. 20.
[39] Yenə orada, mad. 17.
[40] Yenə orada, mad. 33.5 və 40.2 (i).
[41] Yuxarıda istinad 30.
[42] Yuxarıda istinad 37, mad. 83.4 və 83.5.

Qeyd edək ki, GDPR **vəfat etmiş şəxslərin fərdi məlumatlarına şamil edilmir**.[43] Belə ki, Aİ-yə üzv dövlətlərin vətəndaşlarının fərdi məlumatlarının qorunmasına yönəlmiş Qanun yalnız sağ olan şəxslərin məlumatlarının qorunması üçün tətbiq oluna bilər. Bununla belə, GDPR-da qeyd olunub ki, üzv dövlətlər vəfat etmiş şəxslərin fərdi məlumatlarının qorunması və işlənməsi ilə bağlı qaydaları özləri təmin edə bilər.[44]

**Bolqarıstan:** 2002-ci ildə qüvvəyə minmiş Bolqarıstanın "Fərdi Məlumatların Qorunması Akt"-ında vəfat etmiş şəxslərin fərdi məlumatlarının qorunması ilə bağlı tənzimləmə olmasa da, 2019-cu ildə ona müəyyən düzəlişlər edilmişdir. Belə ki, həmin Akta görə, "məlumat nəzarətçisi və ya prosessor tərəfindən yalnız qanuni əsas olduqda vəfat etmiş şəxslərin fərdi məlumatları işlənilə bilər".[45] Belə hallarda məlumat nəzarətçisi və ya prosessor başqalarının hüquq və azadlıqlarına və ya ictimai mənafeyə zərər vurmaması üçün müvafiq tədbirlər görməlidir.[46] Həmçinin Aktda qeyd edilir ki, "tələb olduqda nəzarətçi vəfat etmiş şəxsin vərəsələrinə və ya qanuni mənafeyi olan digər şəxslərə vəfat etmiş şəxsin fərdi məlumatlarına giriş təmin edəcəkdir".[47] Bu halda, nəzarətçi belə məlumatların surətini[48] də onlara təqdim edə bilər. Beləliklə, Bolqarıstanın fərdi məlumatların qorunması üzrə müəyyən etdiyi qaydalar qanunvericilikdə müəyyən edilən və yuxarıda göstərilən hallar istisna olmaqla, vəfat etmiş şəxslərin fərdi məlumatlarının işlənməsinə şamil edilmir.

**Estoniya:** Estoniyanın "Fərdi Məlumatların Qorunması Akt"-ına görə, şəxs vəfat etdikdən sonra onun fərdi məlumatlarının işlənməsinə aşağıda qeyd olunan hallar istisna olmaqla yalnız şəxsin vərəsələrinin razılığı ilə icazə verilir:[49]

1) şəxsin vəfatından 10 il keçməsi;
2) yetkinlik yaşına çatmayan şəxsə münasibətdə şəxsin vəfatından 20 il keçməsi;
3) qanunvericilikdə nəzərdə tutulmuş digər əsaslar olması.

Buradan aydın olur ki, həmin qanun şəxsin sağlığında başqa cür qərar vermədiyi halda vəfat etmiş şəxsin fərdi məlumatlarını onun vəfatından sonra 10 il, yetkinlik yaşına çatmayan şəxslərə münasibətdə isə 20 il ərzində qoruyur. Həmin Akt həmçinin şəxsin bir neçə vərəsəsinin olması halında vəfat etmiş şəxsin məlumatlarının işlənilməsi qaydasını da müəyyən etmişdir. Belə ki, Akta görə, "vəfat etmiş şəxsin bir neçə vərəsəsi olarsa, şəxsin fərdi məlumatlarının işlənməsinə onlardan hər hansı birinin razılığı ilə icazə

[43] Yenə orada, mad. 27.
[44] Yenə orada.
[45] Bulgarian Personal Data Protection Act, mad. 25(f) (2002).
[46] Yenə orada.
[47] Yenə orada, 25(f )(2).
[48] Yenə orada.
[49] Estonia Personal Data Protection Act, fəsil 3, para. 9, hissə 2 (2019).

verilir".[50] Aktda, vəfat etmiş şəxsin adı, cinsi, doğum və ölüm tarixi, ölüm faktı, dəfn vaxtı və dəfn yeri haqqında məlumatlardan istifadə edildiyi zaman vərəsələrdən razılıq tələb olunmadığı da müəyyən olunmuşdur.[51]

**İtaliya:** İtalyanın vəfat etmiş şəxsin məlumatlarının qorunmasını "Məlumatların Qorunması Məcəlləsi" vasitəsilə təmin edilir. Qeyd edək ki, həmin Məcəllədə vəfat etmiş şəxslərin fərdi məlumatlarının qorunması üzrə geniş yanaşma mövcuddur. Belə ki, Məcəllədə qeyd edilir ki, "vəfat etmiş şəxsin fərdi məlumatlarının qorunması üzrə hüquqlar 1) qanuni marağı olan; 2) vəfat etmiş şəxsin maraqları üçün səlahiyyətli nümayəndə kimi fəaliyyət göstərmək vəzifəsi olan; 3) qorumağa əsas verən ailə səbəbləri olan hər hansı şəxs tərəfindən həyata keçirilə bilər".[52]

**Danimarka:** Danimarkanın GDPR-ın tətbiqi olaraq qəbul etdiyi "Fərdi Məlumatların Qorunması Akt"-ında da vəfat etmiş şəxslərin məlumatların qorunması ilə bağlı müəyyən tənzimləməyə yer verilmişdir. Aktda qeyd edilir ki, "bu Akt və GDPR şəxsin vəfatından sonra 10 il müddətinə həmin şəxsin məlumatlarına şamil edilir".[53] Həmçinin Aktda müəyyənləşdirilir ki, səlahiyyətli şəxslə məsləhətləşərək Ədliyyə Nazirliyi tərəfindən bu Aktın və GDPR-ın müddəalarının vəfat etmiş şəxslərin məlumatlarına tam və ya qismən, müəyyən olunmuş müddətdən daha uzun və ya qısa müddət tətbiq edilməsinə dair qaydalar müəyyənləşdirilə bilər.[54]

**Fransa:** Fransanın "Rəqəmsal Respublika Aktı" (The Digital Republic Act) vəfat etmiş şəxsin fərdi məlumatlarının təhlükəsizliyini tənzimləyən müddəaları özündə əks etdirir. Belə ki, həmin Akt vəfat etmiş şəxsin məlumatlarının onun vəfatından sonra saxlanması və ötürülməsi üçün tənzimləmələr müəyyən etməklə şəxsin vəfatından sonra onun rəqəmsal "əmlak"-ının idarə edilməsinə diqqət yetirir.[55] Həmin Akta görə, "insanlar şəxsi məlumatlarının işlənilməsi ilə bağlı təlimatları Fransız Məlumat Qoruma Təşkilatına (CNIL) və ya bir məlumat nəzarətçisinə göndərə və bu təlimatları yerinə yetirmək üçün məsul şəxs təyin edə bilərlər".[56] Bundan əlavə, qeyd edilir ki, internet provayderləri istifadəçiyə vəfatından sonra bu məlumatlara nə olacağı barədə məlumat verməli və vəfatından sonra belə məlumatlarının üçüncü şəxsə ötürülüb-ötürülməyəcəyini seçmək imkanı verməlidir.[57]

**Slovakiya:** Slovakiyanın fərdi məlumatların qorunması üzrə müəyyən etdiyi qanunlarda da vəfat etmiş şəxslərin fərdi məlumatlarının qorunmasına münasibətdə müəyyən tənzimləmə mövcuddur. Belə ki, bu sahədə Slovakiya

[50] Yenə orada, fəsil 3, para. 9, hissə 3.
[51] Yenə orada, fəsil 3, para. 9, hissə 4.
[52] Italian Personal Data Protection Code, bölmə 9, mad. 3 (2003).
[53] Danish Data Protection Act, hissə 1, mad. 5 (2018).
[54] Yenə orada, hissə 1, mad. 6.
[55] Explanatory Memorandum of the Digital Republic Bill, mad. 20 (2016).
[56] The Digital Republic Bill, mad. 63 (2016).
[57] Yenə orada.

qanunvericiliyinə görə şəxs həyatda deyilsə, onun fərdi məlumatlarının işlənilməsinə "Fərdi Məlumatların Qorunması Aktı"-nda və ya xüsusi tənzimləməyə uyğun olaraq tələb olunan razılıq yaxın şəxs tərəfindən verilə bilər.[58] Yalnız bir yaxın şəxs tərəfindən yazılı şəkildə razılıq bildirilmədiyi təqdirdə belə razılıq etibarlı deyildir.[59] Göründüyü kimi, Slovakiya qanunvericiliyində vəfat etmiş şəxsin fərdi məlumatlarından istifadə edilməsi ilə bağlı tənzimləmə çox ümumi xarakter daşıyır, bu isə vəfat etmiş şəxsin fərdi məlumatlarının işlənilməsi üzrə tənzimləmənin tətbiqini çətinləşdirir. Bundan başqa, həmin Aktda "yaxın şəxs" kateqoriyasına daxil olan şəxslərin dairəsi qeyd olunmamışdır. Belə ki, "yaxın şəxs" kateqoriyası Slovakiya Mülki Məcəlləsi ilə müəyyən edilir. Həmin Məcəllədə "yaxın şəxs" kimi "1) birbaşa xətdə qohum, qardaş/bacı və həyat yoldaşı; 2) birinin vurduğu ziyan, digəri tərəfindən özünün zərəri kimi əsaslı şəkildə qəbul edildiyi təqdirdə ailənin və ya oxşar münasibətdə olan digər şəxslər" müəyyən edilir.[60]

**Almaniya:** Almaniyanın vəfat etmiş şəxsin fərdi məlumatlarına münasibətdə yanaşmasını müəyyən etmək üçün Federal Ədalət Məhkəməsi tərəfindən 15 sentyabr 2020-ci il tarixli qərarına nəzər yetirək. Belə ki, 14 yaşlı yeniyetmə hələ də məlum olmayan şəraitdə gələn qatar tərəfindən vurularaq ölümcül xəsarət aldı.[61] İddiaçılar (valideyn) yeniyetmənin ölümündən əvvəl intihar düşüncələrinin olub-olmamasını müəyyən etmək üçün şəxsin giriş məlumatları ilə "Facebook" hesabına giriş əldə etməyə çalışmışlar. Lakin, "Facebook" şəxsin profilini "xatirə səhifəsi" halına gətirmişdi, yəni giriş məlumatları ilə də vəfat etmiş şəxsin istifadəçi məlumatlarına giriş mümkün deyildi.[62] Valideynlər isə qızlarının hesabına giriş əldə etmək üçün məhkəməyə müraciət etmişdirlər. Federal Ədalət Məhkəməsi qərarında "Facebook" ilə vəfat etmiş şəxs arasındakı istifadəçi müqaviləsinin Almaniya Mülki Məcəlləsinə əsasən qanunun tətbiqi yolu ilə vərəsəyə keçən bir müqavilə olduğunu bildirmişdir.[63] Qərara əsasən, ölən qızın valideynlərinin hesaba və rəqəmsal məzmuna daxil olmaq hüququ tanındı. 30 avqust 2018-ci il tarixində "Facebook" vəfat etmiş şəxsin strukturlaşdırılmamış hesab məlumatlarını ehtiva edən 14000 səhifəlik PDF sənədini bir "USB flash drive" vasitəsilə onun valideynlərinə təqdim etdi.[64] Daha sonra iddiaçılar qərarın icrasını, yəni vəfat etmiş şəxsin sosial şəbəkəsindəki məlumatların yalnız

---

[58] Slovakia, ACT on personal data protection, bölmə 78, hissə 7 (2017).
[59] Yenə orada.
[60] Civil Code of Slovakia, mad. 116 (1964).
[61] Germany: Federal Court of Justice Clarifies Scope of Postmortem Access to Social Media Accounts, burada bax: https://www.loc.gov/law/foreign-news/article/germany-federal-court-of-justice-clarifies-scope-of-postmortem-access-to-social-media-accounts/ və III ZR 183/17 №-li iş, Almaniya Federal Məhkəməsi, para. 3 (2018), burada bax: https://juris.bundesgerichtshof.de/cgibin/rechtsprechung/document.py?Gericht=bgh&Art=en&nr=86602&pos=0&anz=1 (son baxış 8 Dekabr, 2020).
[62] Yenə orada, para. 4 və 5.
[63] Yenə orada, para. 50.
[64] Yuxarıda istinad 61 və III ZB 30/20 №-li İş, Almaniya Federal Məhkəməsi, para. 3 (2020).

məzmununun onlara təqdim edilməsini və hesaba birbaşa girişin təmin edilməməsini mübahisələndirmək üçün yenidən məhkəməyə müraciət etdilər.[65] Federal Ədalət Məhkəməsi vəfat etmiş şəxsin istifadəçi hesabına "giriş təmin edilməsi"-ni iddiaçıların bu hesaba və onun məzmununa, aktiv məzmun daxil etmək istisna olmaqla, vəfat etmiş şəxslə eyni şəkildə daxil olmasının təmin edilməli olduğunu bildirdi. Məhkəmə vəfat etmiş şəxsin "Facebook" ilə olan istifadəçi müqaviləsinə və Almaniya Mülki Məcəlləsinə əsaslanaraq universal varislik yolu ilə vərəsələrinə keçən[66] hesaba "giriş təmin edilməsi"-ni məzmunun ötürülməsi kimi deyil, hesaba girişin təmin edilməsi kimi təfsir etdi.[67] Bu səbəbdən məhkəmənin qərarına görə, "cavabdeh tərəfindən iddiaçılara vəfat etmiş şəxsin hesab məlumumatlarının məzmununun təqdim edilməsi kifayət deyil, hesabın özünə giriş təmin edilməlidir".[68] Qərarın məzmumuna görə, "qanunun tətbiqi ilə şəxsin hesabına giriş hüququ iddiaçılara ötürüldüyünə görə, onlara mülkiyyətçidən daha az rəftar edilə bilməz,"[69] yəni vəfat etmiş şəxsin valideynləri qızlarının hesabına giriş hüququ əldə etdi. Beləliklə, qeyd edə bilərik ki, Almaniya qanunvericiliyinin vəfat etmiş şəxsin fərdi məlumatlarının qorunması üzrə yanaşması baş vermiş məsələnin mahiyyətindən asılı olaraq dəyişə bilər.

**Böyük Britaniya:** Aİ üzvlüyündən çıxmış Böyük Britaniyada Aİ-yə üzv olduğu dövrdə GDPR-ın tətbiq ilə bağlı 2018-ci ildə "Məlumatların Qorunması Qanunu" (The Data Protection Act 2018 – DPA 2018) qəbul olunmuşdur.[70] Qeyd edək ki, həmin Qanun da vəfat etmiş şəxslərin məlumatlarının qorunması ilə bağlı məsələyə münasibət bildirməmişdir. Qanunda qeyd edilir ki, "*fərdi məlumatlar* yaşayan şəxslə bağlı müəyyən edilmiş və ya müəyyən edilə bilən hər hansı bir məlumat" deməkdir.[71] Aydın olduğu kimi, Qanun vəfat etmiş şəxsin fərdi məlumatlarının qorunmasını öz təsir dairəsinə almamışdır. Lakin qeyd etmək lazımdır ki, 1990-cı il tarixli "Sağlamlıq Qeydlərinə Giriş Aktı" (The Access to Health Records Act 1990) vəfat etmiş şəxslərlə əlaqəli sağlamlıq qeydlərinə (fərdi məlumatları ehtiva edən) girişlə əlaqədar qaydaları tənzimləyir.[72] Həmin Akta görə, bir şəxs vəfat etmiş şəxsin sağlamlığı haqqında məlumatların əks olunduğu qeydləri yalnız bunlardan biri olduqda əldə etmək hüququna malikdir:[73] i) vəfat etmiş xəstənin şəxsi nümayəndəsi; ii) xəstənin ölümü ilə əlaqədar iddiası ola biləcək

[65] Yenə orada.
[66] Yenə orada, para. 17.
[67] Yenə orada, para. 46 və 47.
[68] Yenə orada.
[69] Yenə orada, para. 11, 15 və 17.
[70] Data protection, burada bax: https://www.gov.uk/data-protection#:~:text=The%20Data%20Protection%20Act%202018%20is%20the%20UK's%20implementation%20of,used%20fairly%2C%20lawfully%20and%20transparently (son baxış 8 Dekabr, 2020).
[71] The Data Protection Act, mad. 3.2 (2018).
[72] Elizabeth Parkin və Philip Loft, Patient health records: access, sharing and confidentiality, 4 (2020).
[73] Access to Health Records Act, mad. 3(1)(f) (1990).

hər hansı şəxs. Həmçinin Aktda qeyd edilir ki, "şəxs sağ ikən sağlamlıq qeydlərində buradakı məlumatlarına giriş verilməsini istəmədiyi barədə öz müraciəti ilə daxil edilmiş qeyd olarsa, bu halda vəfat etmiş şəxsin sağlamlığı haqqında qeydlərinə başqasının girişi təmin edilə bilməz".[74] Bundan əlavə, vəfat etmiş şəxsin sağlamlıq məlumatlarının açıqlanmasına a) şəxsə fiziki və ya mənəvi ciddi ziyan vurma riski olduqda və ya b) qeydlərdə başqa bir şəxslə əlaqəli məlumat olduqda və ya belə məlumatdan başqa bir şəxsin kimliyini müəyyən etmək mümkün olduğu hallarda yol verilmir.[75] Beləliklə, qeyd olunanlardan aydın olur ki, Böyük Britaniyanın fərdi məlumatlarla bağlı qanunvericiliyi vəfat etmiş şəxsin rəqəmsal aləmdə toplanmış fərdi məlumatların qorunması üzrə tənzimləmə müəyyən etməsə də, müəyyən fərdi məlumatlarının, məsələn sağlamlığı ilə bağlı məlumatların qorunmasını təmin edir.

**Amerika Birləşmiş Ştatları:** ABŞ-da federal və əyalətlərində fərdi məlumatların qorunması üçün vahid bir qanunvericilik modeli mövcud deyil.[76] Belə ki, ABŞ-ın 48 ştatında və ABŞ Vircin adalarında şəxsin əmək qabiliyyətini itirməsi və ya ölümü ilə əlaqədar onun elektron poçt, sosial media hesabları, mikrobloqlar və ya digər veb-sayt hesablarına və ya elektron qaydada saxlanılan rəqəmsal "əmlak"-ına çıxış əldə edilməsi ilə bağlı müxtəlif qanunlar qəbul edilmişdir.[77] Demək olar ki, hər bir ştatın, öz yurisdiksiyasında tətbiq olunan məlumatların məxfiliyinin qorunması üzrə qanunları mövcuddur.[78] Bunlardan 2018-ci il tarixli "Kaliforniya İstehlakçı Məxfilik Qanunu"-nu (California Consumer Privacy Act of 2018)[79] qeyd edə bilərik. Qanuna görə, şəxsin şirkətlərdən onlar haqqında hansı məlumatlara sahib olduqlarını haqqında məlumat əldə etmək və məlumatların silinməsini tələb etmək hüququ var.[80] Bu hüququ həmçinin şəxsin adından onun səlahiyyət verdiyi şəxs də həyata keçirə bilər.[81] Başqa bir nümunə, "Delaver Onlayn Gizlilik və Məlumatların Qorunması Qanunu"-nda (The Delaware Online Privacy and Protection Act),[82] fərdi məlumatların operatorları üçün aşağıdakı sahələr üzrə tənzimləyici öhdəliklər müəyyən edilir:[83]

---

[74] Yenə orada, mad. 4(3).
[75] Yenə orada, mad. 5(1)(a).
[76] Stephen P. Mulligan, Wilson C. Freeman və Chris D. Linebaugh, Data Protection Law: An Overview, 58 (2019).
[77] Access to Digital Assets of Decedents (2020), burada bax: https://www.ncsl.org/research/telecommunications-and-information-technology/access-to-digital-assets-of-decedents.aspx (son baxış 9 Dekabr, 2020).
[78] Robert Hasty, Dr. Trevor W. Nagel və Mariam Subjally, Data Protection Law in the USA, 12 (2013).
[79] California Consumer Privacy Act (SB-1121, 2018).
[80] Yenə orada, (1).
[81] Yenə orada.
[82] Delaware Code, fəsil 148 (1963).
[83] Yenə orada, para. 1201C-1204C.

- uşaqlara yönəldilmiş xidmətlər və platformalar üzrə internet saytları, onlayn və ya bulud hesablama xidmətləri, onlayn və ya mobil tətbiqetmələr;
- gizlilik siyasətinin yerləşdirilməsi;
- rəqəmsal kitab istifadəçiləri ilə əlaqədar gizliliyin qorunması.

Həmçinin Delaver də daxil olmaqla ABŞ-ın 45 ştatında[84] hesab sahibi vəfat etdikdə və ya hesabı idarə etmək qabiliyyətini itirdikdə şəxsin onlayn hesablarına girişi tənzimləyən "Rəqəmsal Varlıqlara Fidusiar Giriş Qanunu" (Uniform Fiduciary Access to Digital Assets Act - RUFADAA)[85] qəbul edilmişdir. *Fidusiar* vəfat etmiş şəxsin müxtəlif hesablarında onun mətnləri, şəkilləri, videoları, səsləri, kodları, kompüter proqramları, proqram təminatını, verilənlər bazalarını və ya bu kimi digər məlumatlarını[86] təhlükəsiz şəkildə idarə etmək üçün təyin olunmuş şəxsdir. Fidusiar kimi vəfat etmiş şəxsin vərəsəsi, onun təyin etdiyi nümayəndəsi, qəyyumu və ya müvafiq səlahiyyət verdiyi agent çıxış edə bilər.[87]

Bundan əlavə, Nyu-York Məhkəməsinin Nicholas G. Scandalios[88] işini nəzərdən keçirək. İddiaçının həyat yoldaşı Ric Svezey 2017-ci ildə gözlənilmədən vəfat edir.[89] Vəsiyyətində həyat yoldaşının onun "Apple" hesabındakı bir çox ailə fotoşəkilləri də daxil olmaqla rəqəmsal "əmlak"-ına giriş icazəsi ilə bağlı aydın iradə ifadəsi olmur.[90] İddiaçı hesablara giriş əldə etmək üçün əvvəlcə "Apple"-a müraciət edir, lakin "Apple" şəxsi hesaba girişlə təmin etmir.[91] "Apple iCloud" ilə istifadəçi arasında olan müqaviləyə görə, qanunda başqa cür nəzərdə tutulmadığı halda, şəxsin hesabı köçürülə bilən deyil və "Apple ID" və hesabın məzmunu şəxsin vəfat etməsi ilə ləğv edilmiş hesab edilir.[92] İddiaçı vəfat etmiş həyat yoldaşının hesablarına giriş əldə etmək üçün məhkəməyə müraciət edir. Məhkəmə Nyu-Yorkun fərdi məlumatların qorunması üzrə mövcud qanunvericiliyinə əsaslanaraq, elektron kommunikasiyaların ("electronic communications") açıqlanması üçün istifadəçinin razılığı və ya məhkəmə qərarının tələb edildiyini bildirir.[93] Hazırkı məsələdə isə iddiaçının vəfat etmiş həyat yoldaşının "Apple" hesabında saxlanılan şəkillərinə çıxışın verilməsinin "elektron kommunikasiya" olmadığını və iddiaçının həyat yoldaşının hesabına daxil olması üçün şəxsin sağlığında belə razılığın verilmiş olmasına və ya

[84] Yuxarıda istinad 77.
[85] Revised Uniform Fiduciary Access to Digital Assets Act, (2015).
[86] Yenə orada, hissə (15).
[87] Yenə orada, hissə (14).
[88] Nicholas G. Scandalios case, 2017-2976/A, (2019). Burada bax: https://nycourts.gov/reporter/pdfs/2019/2019_30113.pdf (son baxış 9 Dekabr, 2020).
[89] Yenə orada s. 2.
[90] Yenə orada.
[91] Yenə orada s. 1.
[92] Legal Agreement, hissə 4, bənd "D", burada bax: https://www.apple.com/ca/legal/internet-services/icloud/en/terms.html (son baxış 9 Dekabr, 2020).
[93] Yuxarıda istinad 88, s. 4.

məhkəmənin qərarının olmasına ehtiyac olmadığını bildirir.[94] Beləliklə, Nyu-York Məhkəməsi iddiaçının həyat yoldaşının "Apple" hesabına daxil olması üçün şifrəni yeniləmək imkanının verməsinə dair qərar qəbul edir.[95]

Aydın olduğu kimi vəfat etmiş şəxsin rəqəmsal aləmdə toplanmış və saxlanmış fərdi məlumatlarının tənizmlənməsi üzrə ABŞ-da vahid qanunvericilik olmadığı kimi vəfat etmiş şəxsin fərdi məlumatlarına çıxışın verilməsi ştatlardan, onların öz yurisdiksiyaları daxilində tətbiq etdiyi mövcud qanunlarından asılı olaraq dəyişə bilər.

## IV. Şəxsin vəfatından sonra onun fərdi məlumatlarının qorunması yolları və vasitələri

Bu hissədə isə yuxarıda qeyd olunanlardan gəlinmiş qənaət nəticəsində vəfat etmiş şəxsin rəqəmsal aləmdə toplanmış və saxlanılmış fərdi məlumatlarının qorunmasının hansı yollar və vasitələrlə mümkün olmasından danışılacaqdır.

Vəfat etmiş şəxsin rəqəmsal aləmdə toplanmış və saxlanmış fərdi məlumatlarının qorunmasının müxtəlif yollarla, vasitələrlə təmin etmək olar. Bunların arasından aşağıda qeyd edilmiş üsul və vasitələr fərqləndirilə və məlumatların qorunması üzrə daha effektiv sayıla bilər:

1. Fərdi məlumatların məxfiliyini qorumaq üçün şəxsin sağ ikən sahib olduğu hesablar onun vəfatı ilə silinə bilər. Başqa formada ifadə etsək, "unudulmaq hüququ" (right to be forgotten) genişləndirilə və tənzimlənməsi həyata keçirilə bilər. Bu cür silinmə şəxs sağ ikən bu cür hərəkətlər etməyə səlahiyyət verdiyi şəxsin və ya vərəsəsinin tələbi ilə həyata keçirilə bilər. Hər bir halda, bununu icrası üçün internet şirkəti ilə istifadəçi arasında olan xidmət müqaviləsinin şərtlərində öz əksini tapmalıdır. Məsələn "Yahoo"-nun da qoşulduğu Verizon rəqəmsal və mobil media şirkətinin istifadəçilərinə təqdim etdiyi xidmət müqaviləsinə görə, Verizon Media hesabları ötürülə bilən deyil və hesab sahibinin vəfatı ilə əlaqədar hesablar üzərində hər hansı bir hüquq sona çatmış hesab olunur.[96]

2. Əgər şəxs sağ ikən onun rəqəmsal "əmlak"-ından istifadənin mümkünlüyü ilə bağlı qərar verməyibsə, bununla bağlı vəsiyyətində bildirməyibsə, bu halda belə "əmlak" üzərində iddiası olan şəxs və ya vərəsə vərəsəlik hüququna əsaslanmaqla hesablara giriş əldə etmək tələbi ilə qanunvericilikdə müəyyən edilmiş qaydada məhkəməyə və ya müvafiq səlahiyyətli orqana müraciət edə bilər.

3. Vəfat etmiş şəxsin fərdi məlumatlarının təhlükəsiz işlənilməsinin və onların qorunmasının təmin edilməsi mexanizmlərindən biri kimi

---

[94] Yenə orada.
[95] Yenə orada. s. 5.
[96] Verizon Media Terms of Service, mad. 3(a) (2018), burada bax: https://www.verizonmedia.com/policies/au/en/verizonmedia/terms/otos/index.html (son baxış 30 Noyabr, 2020).

anonimləşdirmə, psevdonimləşdirmə və bunun kimi digər üsullar tətbiq oluna bilər. Belə ki, anonimləşdirmə ad, ünvan və sosial təhlükəsizlik nömrələrini silməklə gizliliyi təmin edirsə, psevdonimləşdirmə belə məlumatları ləqəb və süni identifikasiya ilə əvəz edir.[97] Bu üsuldan istifadə etməklə vəfat etmiş şəxsin müxtəlif hesablarındakı müəyyən şəxsi məlumatlarının təhlükəsiz işlənilməsini təmin etmək mümkün ola bilər.

Fərdi məlumatların qorunmasının pozulması halında öz səlahiyyətləri çərçivəsində tədbirlər görən orqanların nəzarət mexanizmi təkmilləşdirilə bilər. Belə orqanların birinin, məsələn Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tərkibində vəfat etmiş şəxsin müxtəlif hesablarına başqası tərəfindən çıxışına nəzarət edən ona tabe qurum yaradıla bilər. Həmçinin müxtəlif maraqlı şəxslərin vəfat etmiş şəxsin fərdi məlumatlarının təhlükəsizliyi pozulduğu halda müvafiq quruma məlumat verməsi əlçatan edilə bilər.

Qeyd edilən üsul və va vasitələrdən istifadə edilməsi fərdi məlumatların qorunmasına yeni baxış bucağı gətirə bilər. Bu üsullar həm fərdi məlumatlar üzrə qanunvericiliyin, həm də əlaqəli digər qanunvericilik normalarının, məsələn vərəsəlik institutunun təkmilləşdirilməsində və bununla bağlı tənzimləmə mexanizminin yaradılmasında yardımçı ola bilər.

## Nəticə

Göründüyü kimi, texnologiyanın sürətli inkişafı, internetdən istifadənin hər gün daha da genişlənməsi vəfat etdikdən sonra rəqəmsal dünyada toplanmış fərdi məlumatlarımızın təhlükəsizliyi məsələsini gündəmə gətirir və fərdi məlumatların qorunmasını tənzimləyən qaydaların yenidən nəzərdən keçirilməsini zəruri edir. Qeyd edildiyi kimi, hazırda nə milli, nə də beynəlxalq qanunvericilikdə şəxsin vəfatından sonra onun fərdi məlumatlarının qorunması ilə bağlı konkret, aydın və yetərli hüquqi baza yoxdur. Lakin qeyd etmək lazımdır ki, vəfat etmiş şəxsin fərdi məlumatlarının taleyi ilə bağlı məsələ aktiv araşdırma mövzusudur, bu isə yaxın gələcəkdə bununla bağlı müəyyən hüquqi bazanın formalaşdırılacağını, təkmilləşdiriləcəyini qeyd etməyə əsas verir.

Həmçinin qeyd edək ki, ölkəmizdə də fərdi məlumatların qorunması istiqamətində artıq hüquqi islahatlar aparılır, yüksək səviyyəli işçi qrupu formalaşıb.[98] Belə ki, şəxsin fərdi məlumatlarının qorunması üzrə yerli qanunvericiliyin təkmilləşdirilməsi zamanı vəfat etmiş şəxsin rəqəmsal aləmdə toplanmış və saxlanılmış fərdi məlumatlarının qorunması ilə bağlı müddəaların da əks etdirilməsi və bununla bağlı tətbiq mexanizminin formalaşdırılması məqsədəuyğun olacaqdır.

[97] Məkrufə Hacırəhimova, Big Data texnologiyalarının təhlükələri, 250 (2015).

[98] Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin veb-saytı (2020), burada bax: https://mincom.gov.az/az/view/news/837/azerbaycanda-ii-beynelxalq-kibertehlukesizlik-heftesi-kechirilecek (son baxış 30 Noyabr, 2020).

Beləliklə, məqalənin ayrı-ayrı hissələrində qeyd olunan məqamları, müxtəlif dövlətlərin təcrübələrini, qanunvericilikdəki boşluqlar və çatışmazlıqları ümumiləşdirsək, bu sahədə yerli qanunvericiliyə aşağıdakı qeyd olunan dəyişikliklərin edilməsi tövsiyə oluna bilər:

1. Fərdi məlumatların qorunması üzrə qanunvericiliyin müddəaları təkmilləşdirilməli və şəxsin vəfatından sonra onun fərdi məlumatlarının qorunmasını təsbit edən normalar tərtib edilməlidir.

2. Şəxsin vəfatından sonra onun fərdi məlumatlarının hansı yollarla, vasitələrlə qorunmasının mümkünlüyü, məlumatlardan hansı hallarda, hansı formada və kimlər tərəfindən istifadə edilə bilməsi məsələləri aydın şəkildə qanunvericilikdə öz təsbitini tapmalıdır.

Bununla da, şəxsə onun vəfatından sonra fərdi məlumatlarının qorunmasının yollarını və dərəcəsini seçmək imkanı verilə və şəxsin fərdi məlumatlarının təhlükəsizliyi o vəfat etdikdən sonra da təmin edilə bilər.